

# Heydər Əliyev və dövlət arxiv quruculuğu

İyirminci əsrin 20-ci illərinə qədər istər Azərbaycan, istərsə də Naxçıvanda dövlət idarəçiliyinin əsas atributlarından biri sayılan arxivlər olmamışdır. Ölkəmizdə arxiv işinin dövlət səviyyəsində təşkilinə 1920-ci ilin dekabrından başlanmışdır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov "Vahid dövlət arxiv fondunun yaradılması və xalq maarif komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekret imzalamışdır. Həmin dekreti əldə rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci il dekabr ayının 13-də Naxçıvan MSSR-də mərkəzi dövlət arxivinin yaradılması haqqında qərar qəbul etmişdir.

Azərbaycanın arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar olaraq 1930-cu ildə Naxçıvan MSSR mərkəzi dövlət arxivi yenidən təşkil edilmişdir. Naxçıvan şəhərindəki dövlət arxivi onun tərkib hissəsindən ibarət idi. Lakin 1960-cı ilə qədər, arxiv idarəsi və mərkəzi dövlət arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olan dövrdə demək olar ki, arxivlər qapalı təşkilatlar idilər. Və bu da onlarda elmi-tədqiqat işlərinin aparılmasına və arxiv sənədlərindən istifadəyə əngəllər törədirdi. Ötən əsrin 60-cı illərində ittifaqın başqa respublikalarında olduğu kimi, muxtar respublikamızda da arxiv təşkilatı Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılıb Nazirlər Sovetinin tabeliyinə verildi. Bundan sonra arxiv işinə və arxiv sənədlərindən istifadə məsələlərinə diqqət bir qədər artırıldı.

1928-30-cu illər arasında muxtar respublikamızın rayonlarında da dövlət arxivləri yaradılmağa başladı. İlk dəfə Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarında bu iş inkişaf tapdı. Dövlət arxivlərinə əsl qayğı isə möhtərəm Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsi ilə başlandı. Arxivlər genişləndirildi, onların maddi-texniki bazası müəyyən qədər möhkəmləndi. Bu idarələr ixtisaslı kadrlarla təmin olundu. 1979-cu ildə Babək rayonunda, 1990-cı ildə Sədərək, 2004-cü ildə Kəngərli rayonlarının yaradılması ilə əlaqədar həmin bölgələrdə dövlət arxivləri təşkil olundu və ölkəyə, əhaliyə xidmət etməyə başladı. Hazırda Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin tabeliyində bir muxtar respublika dövlət arxivi və 7 rayon dövlət arxivi fəaliyyət göstərir. Bu arxivlərdə elmin, mədəniyyətin və ictimai həyatın müxtəlif sahələrini özündə əks etdirən 360 mindən çox kağız əsaslı idarəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin 2000-ə qədər işdən ibarət elmi və texniki sənədləri, 84 minə yaxın foto və 5 mindən çox kino sənədi mühafizə olunur.

Xalqımız öz mənəvi sərvəti olan arxivlərinə yalnız 1991-ci ildə, keçmiş sovetlər ittifaqı dağılandan sonra sahib oldu. Müstəqil respublikamızın ərazisində olan bütün arxivlər Azərbaycan xalqının həqiqi mənəvi sərvətinə çevrildi. İllərlə "bağlı qapı" arxasında qalan bu sənədlərdən tariximizin tədqiqində geniş istifadə olunmağa başlandı.

Müstəqillik əldə etmiş respublikamızda, başqa sahələrdə olduğu kimi, arxiv işi sahəsində də suveren dövlətə məxsus yeni qanunvericilik və normativ aktlar yaranmalı idi. Bunların memarı Heydər Əliyev oldu. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu bu işin səmərəli həyata keçirilməsi üçün demək olar ki, təməl daşı rolunu oynadı. Yeri gəlmişkən qeyd edək ki, keçmiş SSRİ məkanında arxiv işinə aid heç vaxt qanun qəbul edilməmiş, bu sahədə normativ aktlar yalnız SSRİ Nazirlər Sovetinin təsdiq etdiyi "SSRİ Dövlət tarixi fondu haqqında Əsasnamə" ilə tənzimlənmişdir.

"Milli Arxiv fondu haqqında" qanun üzərində uzun müddət iş aparılmış, Milli Məclis 1999-cu ilin iyun ayında "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1999-cu ilin 22 iyun tarixində imzalanıb təsdiq olunmuşdur. Qanun arxiv işinin təkmilləşməsi və inkişafı yolunda çox geniş pesrpektivlər açmışdır.

1999-cu il iyul ayının 27-də isə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev tərəfindən "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi barədə fərman imzalanmışdır. Fərmanda qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün Respublika Nazirlər Kabineti və digər icra hakimiyyət strukturları qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu qanunun icra olunması məqsədilə hansı təşkilatların, kimin hansı vəzifələri yerinə yetirilməsi dəqiqliyi ilə müəyyənləşdirilmişdir.

Beş fəsil, 23 maddədən ibarət olan qanun Azərbaycan Respublikasında milli arxiv fondunun formalaşması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyir.



***Hər bir millətin arxivi onun tarixinin, həyatının ayrılmaz hissəsidir. Əgər bir xalqın arxivi olmayıbsa, yoxdursa, demək o xalqın gələcəyindən də danışmaq əbəsdir. Yəni, keçmişini unudan gələcəksiz yaşayar. Bu, bir həyat aksiomasıdır.***

***Azərbaycanda, o cümlədən Naxçıvanda arxiv quruculuğu çox çətin bir yol keçmişdir. Naxçıvan ərazisi müxtəlif dövlətlərin vuruş meydanına çevrilmiş, nəticədə işğala məruz qalmış bu ərazidə qiymətli arxiv sənətləri ya məhv edilmiş, ya da işğalçılar tərəfindən talan edilib başqa yerlərə daşınmışdır. Çox uzağa getməyək: XVIII-XIX-cu əsrlər xanlıq dövründə istər İran, istərsə də Osmanlı dövlətlərinin Naxçıvan xanlığının ələ keçirilməsi uğrunda apardıqları döyüşlər, həmçinin Türkmənçay müqaviləsindən sonra rus müstəmləkəçiliyi, sonra Naxçıvan qəzasının Gürcüstan İmereti və İrəvan quberniyasına verilməsi buna əyani sübutdur və arxiv quruculuğumuza böyük ziyan vurmuşdur. Bu gün İran İslam Respublikasının Təbriz və Tehran, Türkiyə Cümhuriyyətinin Ankara və İstanbul, eləcə də Ermənistan və Gürcüstanın dövlət arxivlərində Naxçıvanın XVIII-XX-ci əsrlər tarixinə aid saxlanılan çoxlu qiymətli sənəd və nadir əlyazmaları vardır. Bunlar bizim milli sərvətlərimizdir ki, öz əllərimizdən çıxıb.***

"Ümumi maddələr" adlanan birinci fəsildə arxivlər haqqında əsas anlayışlar, milli arxiv fondu haqqında Azərbaycan Respublikası qanunvericiliyi, arxiv işi sahəsində dövlətin vəzifələrindən hərtərəfli bəhs olunur.

Qanunda ilk dəfə olaraq arxiv işi sahəsində dövlətin vəzifələri çox aydın şəkildə müəyyən edilmişdir. Bu da arxiv işinin inkişafına, dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsinə, ziyalıların elmi məqsədlərinə yetməsinə lazımi şərait yaradır.

Yaranma mahiyyətindən, mühafizə yerindən və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisindəki arxiv sənədləri milli arxiv fonduna aid edilir. Dövlət mülkiyyətində olan arxiv fondları və arxiv sənədləri isə milli arxiv fondunun qeyri-dövlət hissəsinə aid olunur. Milli arxiv fonduna Azərbaycan, həmçinin muxtar respublika ərazisində fəaliyyət göstərmiş və hazırda fəaliyyət göstərən təşkilatların qanunvericilik aktları, idarəetmə sənədləri, məhkəmə və prokurorluq orqanlarının sənədləri, statistika, elmi-texnoloji, normativ-texniki, lahiyyə-kontruktor və digər sənədlər, kino, foto, fono (səs yazılar), video materialları, memarlıq lahiyyələri, əlyazmaları, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövrü mətbuat memarları, sənət əsərləri, partiya, ictimai və qeyri-dövlət təşkilatlarının sənədləri, gündəliklər, memuarlar, məktublar və şəxsi xarakterli digər sənədlər daxildir. Yeni qanun və Prezidentin fərmanına əsasən, mülkiyyət formasından və mühafizə yerindən asılı olmayaraq milli arxiv fonduna daxil edilmiş sənədlər arxiv idarəsi tərəfindən dövlət qeydiyyatına alınır.

"Milli arxiv fondu haqqında" Qanuna görə Azərbaycan Respublikasının bütün hüquqi və fiziki şəxsləri dövlət arxivində saxlanılan sənədlərdən istifadə etmək hüququna malikdirlər. Mühafizə müddətindən asılı olmayaraq, dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları Azərbaycan respublikasının və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetləri tərəfindən müəyyən olunur. Qeyri-dövlət arxiv fondlarının sənədlərindən isə onların mülkiyyətçilərinin razılığı ilə istifadə oluna bilər.

Mənəvi sərvətimizin böyük hamisi Heydər Əliyev tərəfindən imzalanmış bu qanun və fərman ölkəmizdə arxiv işi və onun inkişafı ilə bağlı bütün məsələləri əhatə edir, onun strategiyasını, gələcək işlərimizin başlıca istiqamətlərini müəyyənləşdirir.

Və nəhayət qeyd edək ki, Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli fərmanı arxiv işinə verilən ən böyük önəmdir.

Həmin fərmanda arxiv idarəsinin statusunun genişləndirilməsi ilə yanaşı, bu xidmət təşkilatlarının maddi-texniki bazasının təkmilləşdirilməsi və təchizatının yaxşılaşdırılması, arxivlərin lazımi binalarla təmin olunması, mövcud binalarda təmir və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və sair qarşıya çox mühüm vəzifələr kimi qoyulmuşdur və müvəffəqiyyətlə hayata keçirilir.

Fərmanda arxiv sənədlərinin qorunub saxlanması və onların istifadəsinin zəruriliyi qeyd edilməklə yanaşı, bu sahəyə hərtərəfli qayğının artırılması da xüsusi vurğulanır.

Açığını deyim ki, arxiv işi ilə əlaqədar ölkəmizin, həmçinin Naxçıvanın tarixində indiyə kimi belə bir əhatəli sənəd olmamışdır və bütün bunlar möhtərəm Heydər Əliyevin böyük zəhmətinin səmərəli bəhrəsidir.

Prezidentin "Arxiv işinin təkmilləşdirilməsi haqqında" fərmanından sonra Naxçıvan Muxtar Respublika Ali Məclisi Sədrinin 6 dekabr 2002-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublika arxiv idarəsi Naxçıvan Muxtar Respublika Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında yenidən yaradılmışdır. Və bizə öz işlərimizi irəlilətmək, dövlət və xalq qarşısında xidmətlərimizi yerinə yetirmək üçün daim diqqət və qayğı göstərilir.

Böyük öndərimiz Heydər Əliyevin dediyi bu sözlər isə daim yaddaşımızdadır: "Arxiv işinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".

***Fəxrəddin CƏFƏROV,***
***Naxçıvan MR Arxiv İdarəsinin rəisi, tarix elmləri namizədi.***